AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

*Əlyazması hüququnda*

**AYNUR RAMİZ QIZI FƏRMANOVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ ƏLAQƏLƏRİNDƏ YUNESKO-nun ROLU

**5901.01 – Beynəlxalq münasibətlər**

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim olunmuş
dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

İş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix üzrə elmlər doktoru, professor
**Ə.M.HƏSƏNOV**

**Rəsmi opponentlər:** siyasi elmlər üzrə elmlər doktoru, professor
**H.B.MƏMMƏDOV**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**E.M.BAĞIROV**

**Aparıcı təşkilat:** Bakı Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrası

**Müdafiə** "_____" _______________2016-cı il saat __ da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD 02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" ________________ 2016-cı ildə göndərilmişdir.

**FD 02.101 Dissertasiya**
**Şurasının Elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent S.İ.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərinin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi. Bununla yanaşı, XX əsrin 90-cı illərinin ortalarından başlayaraq Azərbaycanda uğurlu sosial-iqtisadi islahatlar aparılmış, son on il ərzində isə, Azərbaycan xalqı və dövləti sözün əsl mənasında sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük hissəsi öz həllini tapmış, istənilən istiqamət üzrə konkret proqramlar icra edilmişdir.

Digər sahələrdə olduğu kimi, Azərbaycan mədəniyyətinin inkişaf istiqamətləri zənginləşmiş və çoxşaxəli olmuşdur. Belə ki, həm milli irsin qorunub saxlanılması, həm də onun dünya mədəniyyətinə inteqrasiya edilməsində mühüm işlər görülmüş, bu sahədə respublikamızda müxtəlif dövlət proqramları hazırlanmış və çoxsaylı tədbirlər həyata keçirilmişdir. Bu sırada son illərdə hazırlanmış bir sıra proqramlarda mədəniyyət sahəsində dövlət siyasətinin strateji istiqamətləri öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Burada həyat çox erkən yaranmışdır və Azıx mağarasında tapılmış Azıxantrop Azərbaycanın ən qədim ibtidai insan məskənlərindən biri olmasını sübut edir. Qobustandakı və Gəlinqayadakı qayaüstü təsvirlər, Kür-Araz, Xocalı-Gədəbəy mədəniyyət nümunələri, kurqan tapıntıları sübut edir ki, hətta miladdan əvvəlki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur"[1]. Buradan göründüyü kimi, Heydər Əliyev arxeoloji və etnoqrafik faktlar əsasında Azərbaycanın qədim tarixə və zəngin mədəniyyətə malik olduğunu qeyd etməklə, ölkəmizin "bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biri" olduğunu vurğulamışdır.

Hazırda Azərbaycanın mədəni və təbii irsinin qorunması YUNESKO ilə əməkdaşlığın əsas istiqamətlərindəndir. Azərbaycanın YUNESKO ilə əlaqələrinin qurulması və inkişaf etdirilməsi 1993-cü ilin ikinci yarısından, Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra başlanmışdır. Bundan əlavə, Heydər Əliyevin

---

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I - XXXXVI kitablar. Bakı: Azərnəşr, 31-ci kitab, s. 141.

təşəbbüsü ilə YUNESKO ilə əlaqələri möhkəmləndirmək və Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə ölkəmiz YUNESKO çərçivəsində qəbul edilmiş bir sıra konvensiyalara qoşulmuşdur.

Bununla yanaşı, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atılmış və 1994-cü il fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bununla əlaqədar sərəncam imzalamışdır. 2005-ci il sentyabrın 15-də isə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev YUNESKO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır[2].

2015-ci ildə YUNESKO-nun Nizamnaməsinin qəbulunun 70 ili tamam oldu. Təşkilatın yaradılmasının 70 illiyinə həsr edilmiş YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda dövlət başçısı İlham Əliyev çıxışında bildirdi ki, "Azərbaycan demək olar ki, YUNESKO -nun bütün konvensiyalarını və digər hüquqi aktlarını imzalamış və ratifikasiya etmişdir. 2003-cü ildə Azərbaycan ilə YUNESKO arasında mədəniyyət, elm, təhsil və kommunikasiya sahələrində əməkdaşlıq üzrə Çərçivə Sazişi imzalanmış, Azərbaycana YUNESKO donorlarından birinə çevrilmək imkanı vermiş, nəticədə, ən zəif inkişaf etmiş ölkələr qarşısında bu bizim öhdəliyimizə çevrilmişdir"[3].

Təqdirəlayiq haldır ki, bu istiqamətdə həm dövlət, həm də qeyri-dövlət xəttilə də mühüm işlər görülür. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın bu sahədə gördüyü işlər Azərbaycan mədəniyyətinin, tarixinin təbliğinə böyük töhfədir.

Azərbaycanın Şərq və Qərb mədəniyyətləri arasında tutduğu mövqe, bu iki dünyanın zəngin mədəni irsinə sahibliyi mədəniyyət diplomatiyasında ölkəmizin əhəmiyyətini son dərəcə artırmışdır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da son 11 ildə digər sahələrdəki nailiyyətləri ilə yanaşı, bütün dünyada

---

[2] Əliyev İ.H. İnkişaf - məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. I - XXXII kitablar. Bakı:Azərnəşr, 12-ci kitab, s.155-164.

[3] İlham Əliyevdən "İqtibaslar": Azərbaycan Prezidenti dövlət quruculuğunun əsas istiqamətləri haqqında kitabı elektron versiya //http://azleadersays.com; "Azərbaycan" qəz., 19 noyabr 2015-ci il.

tolerantlıq və multikulturalizmin də mükəmməl örnəyini yaratmaqdadır. Yarandlğı vaxtdan indiyə kimi Heydər Əliyev Fondunun həyata keçirdiyi qlobal təşəbbüslər Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm ünvanı kimi tanınmasına mühüm töhfə vermişdir.

Bu baxımdan, Azərbaycanın YUNESKO ilə əlaqələrinin öyrənilməsi mühum elmi-siyasi əhəmiyyət kəsb edir və tədqiqatın aktuallığı bir sıra amillərlə izah olunur:

Əvvəla, Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi beynəlxalq əməkdaşlıq institutları ilə münasibətlərin tədqiq olunması və bu kontekstdə beynəlxalq qurumlarla inteqrasiyasının reallaşdırılması mexanizmlərinin öyrənilməsi çox aktual olduğundan və mühüm elmi-siyasi əhəmiyyət kəsb etdiyindən bu problem tədqiqat obyekti kimi seçilmişdir;

İkincisi, bu kontekstdə Azərbaycanın qlobal dünya siyasətinə qatılmasında  üniversal beynəlxalq təşkilat kimi, eləcə də dünyada sülhün və təhlükəsizliyin qorunması üçün yaradılmış BMT ilə əməkdaşlıqın əsas istiqamətlərinin araşdırılması çox zəruridir mühüm elmi əhəmiyyət daşıyır;

Üçuncüsü, müasir dövrdə Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsində BMT-nın Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı - YUNESKO ilə münasibətlərinin öyrənilməsi xüsusi elmi araşdırma tələb edir və mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biridir.

Dördüncüsü, BMT-nin ixtisaslaşmış təşkilatı olan - YUNESKO-nun fəaliyyət istiqamətləri və müasir beynəlxalq münasibətlər sistemində yerinin tədqiq olunması mühüm elmi əhəmiyyət daşıyır və problemin araşdırılması xüsusi aktuallıq kəsb edir;

Beşincisi, YUNESKO ilə əməkdaşlığın araşdırılması ölkəmizin mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması, xüsusilə Azərbaycan mədəni irsinin dünyada təbliğ olunmasında bu təşkilatla əlaqələrin öyrənilməsi mövzunun  aktuallığını şərtləndirən amillərdən biridir;

Altıncısı, Azərbaycanın sivilzasiyalararası və mədəniyyətlərarası dialoq sahəsində göstədiyi təşəbbüslərin YUNESKO ilə əməkdaşlıq kontekstində ayrıca tədqiqat  obyekti  kimi  təhlil edilməsinə böyük ehtiyac duyulur və bu ölkəmizin beynəlxalq mədəni əlaqələrinin öyrənilməsi baxımından əhəmiyyətlidir;

Nəhayət, araşdırılan problem indiyədək, istər Azərbaycanda, istərsə də xaricdə ayrıca tədqiqat obyekti olmamışdır. Doğrudur, mövzunun bəzi məqamlarına dair müəyyən əsərlər yazılsa da, problemin kompleks şəkildə araşdırılmasına böyük ehtiyac duyulur.

**Problemin öyrənilmə dərəcəsi**. Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla, xüsusilə BMT-nın Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı - YUNESKO ilə əməkdaşlıq səviyyəsini, istiqamətlərini və inkişaf dinamikasını elmi-nəzəri cəhətdən tədqiq etmək indiyədək ayrıca tədqiqat obyekti olmasa da, yerli və xarici tədqiqatçılar araşdırdığımız problemin bəzi aspektlərinə öz əsərlərində toxunmuşlar.

Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Azərbaycanın BMT ilə əlaqələrinin qurulması, xüsusilə təşkilatın ixtisaslaşmış qurumu olan - Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı - YUNESKO ilə əməkdaşlıq məsələlərinə bir sıra alim və mütəxəssislərin əsərlərində diqqət yetirilmişdir.

Akademik R.Mehdiyevin böyük aktuallıq kəsb edən əsərlərində qloballaşma şəraitində Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən bəhs edir, eyni zamanda, azərbaycançılıq, milli-mənəvi dəyərlərin qorunması və bu istiqamətlərdə qarşıda duran problemləri və perspektivləri geniş təhlil edir. Bütün bunlarla yanaşı, müəllif, əsərlərində qloballaşma şəraitində Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən bəhs edir, qarşıda duran problemləri və perspektivləri geniş təhlil edir[4].

Tədqiq edilən problemlə bağlı məsələlərə Azərbaycanda beynəlxalq münasibətlər sahəsində çoxsaylı əsərləri olan alimlərdən Ə.Həsənovun əsərlərində də əsas yer verilmişdir. Müəllifin əsərində Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri olan beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələləri öz əksini tapmış, Azərbaycanın BMT ilə münasibətlərinə geniş yer ayırmış, adı çəkilən beynəlxalq qurumla əməkdaşlığın qurulması, inkişaf dinamikası və perspektivləri əsərdə geniş təhlil edilmişdir[5].

Ə.Həsənovun Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinə həsr edilmiş digər elmi əsərində də beynəlxalq təhlükəsizlik sahəsində Azərbaycanın xarici siyasət strategiyası tədqiq edilir. Bununla yanaşı, Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində yeri, eləcə də

---

[4] Mehdiyev R.Ə.Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-YNE, 2005, 464 s.; Mehdiyev R.Ə. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.; Mehdiyev R.Ə. Azərbaycan - 2003-2008: Zaman haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2009, 240 s.

[5] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s.; Гасанов А.М. Современные международные отношения и внешняя политика Азербайджана. 2-ое изд. Баку, «Zardabi LTD», 2013, 1008 с.

ölkəmizin BMT ilə əməkdaşlıq məsələləri də təhlil edilmişdir. Müəllifin Azərbaycanın geosiyasəti və ölkəmizin beynəlxalq münasibətlərinə dair əsərində Avrasiyanın regional geosiyasi vəziyyətinə təsir göstərən fərqli maraqlar sistemi, transmilli, regional və milli hədəflər göstərilir, Azərbaycanla geosiyasi münasibətlərinin xarakteristikası verilir[6].

"Azərbaycan Respublikası 1991-2001" adlı kollektiv müəlliflər tərəfindən tərtib edilmiş kitabda Azərbaycan Respublikasının 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra on il ərzində dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün yeni siyasi kursunun formalaşdırılması və bütün sahələr üzrə inkişaf dinamikası geniş təhlil edilir, Ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması sahəsində həyata keçirdiyi mədəniyyət siyasəti araşdırılır[7].

Azərbaycanda beynəlxalq münasibətlər sahəsində tədqiqat işləri aparan alimlərdən M.Qasımlı öz əsərlərində Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində tutuduğu yeri, xarici siyasət prinsiplərini araşdırmışdır. Bu baxımdan, müəllif müstəqilliyin ilk illərində Azərbaycanın BMT ilə əməkdaşlığın əsas istiqamətlərini tədqiq etmişdir[8].

H.Rəcəblinin BMT-nin ixtisaslaşmış qurumlarının fəaliyyətinə həsr edilmiş əsərində YUNESKO-nun yaradılması, məqsəd və vəzifələri və fəaliyyət istiqamətləri geniş təhlil edilir. BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumu kimi dünya siyasəti və beynənlxalq münasibətlərdə çoxşaxəli fəaliyyəti öyrənilir[9].

H.Məmmədovun əsərlərində müasir beynəlxalq münasibətlər sisteminin xüsusiyyətləri ilə yanaşı, eyni zamanda, Azərbaycan Respublikasının xarici siyasət strategiyası təhlil edilərək, ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri olan beynəlxalq təşkilatlarla, o cümlədən BMT ilə əməkdaşlıq məsələləri tədqiq edilir[10].

---

[6] Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı: Letterpress, 2011, 440 s.; Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi, 2016, 700 s.; Azərbaycanın geosiyasəti. Bakı, "Zərdabi LTD", 2015.-1048 s.
[7] Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, 280 s.
[8] Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı: 1996, 140 s.; Qasımov M.C. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı: Mütərcim, 1997, 124 s.
[9] Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları. Bakı: 2003, 256 s.
[10] Məmmədov H.B. Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu. Bakı: "Aypara-3", 2009, 328 s.; Məmmədov H.B. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: "Bakı Universiteti", 2012, 372 s.

Dissertasiyanın mövzusu baxımından “Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə” ikicildlik əsər mühüm elmi, eləcə də siyasi əhəmiyyət kəsb edir[11]. Əsərdə Azərbaycan-YUNESKO münasibətlərinin inkişaf edərək möhkəmləndirilməsində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti tədqiq edilir. Bununla yanaşı, “Xoşməramlı səfir” adlı 5 cildlik əsərdə Azərbaycan xalqına məxsus mədəniyyət elementlərinin qorunması və dünya mədəniyyət nümunələri sırasına daxil edilməsi, Azərbaycan mədəniyyətinin dünyada təbliğində, eləcə də mədəniyyətlərarası dialoqun genişləndirilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın YUNESKO ilə əməkdaşlıq çərçivəsindəki fəaliyyəti təhlil edilir, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə Azərbaycanda reallaşdırdığı layihələrin xaricdə də uğurla tətbiq edidiyi göstərilir[12].

Bundan əlavə, Heydər Əliyev Fondunun 10 illik fəaliyyətinə həsr edilmiş kitab mühüm əhəmiyyət kəsb edir. Əsərdə Heydər Əliyev Fondunun beynəlxalq səviyyəli qurum kimi BMT-nin İnkişaf Proqramı, YUNESKO, İSESCO və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı təhlil edilir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, bu soyqırımına obyektiv qiymət verilməsi, eləcə də bütün istiqamətlərdə Fondun on il ərzində çox sistemli və ardıcıl fəaliyyəti göstərilmişdir[13].

M.Seyidovun tərtib etdiyi kitabda Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti xronoloji ardıcıllıqla tədqiq edilir[14].

---

[11] Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə: 2 cilddə /elmi red., ideya müəl. Naxçıvanlı A. H, elmi məsl. Əliyeva K. R. II cild. Bakı: 2014, 384 s.; Mehriban Əliyeva: tərəqqi və yüksəliş yolları ilə: 2 cilddə /elmi red., ideya müəl. Naxçıvanlı A. H., elmi məsl. Əliyeva K. R. I cild. Bakı: 2014, 408 s.

[12] Xoşməramlı səfir. I kitab /tərt. Paşayev H.: Qasımov A.; elmi red. Hüseynova İ., Qasımov A. Bakı: ŞƏMS, 2005,192 s.; Xoşməramlı səfir. II kitab /tərt. QasımovA.; elmi red. Naxçıvanlı A.H. Bakı: ŞƏMS, 2006, 208 s.; Xoşməramlı səfir.III kitab /tərt. Cəfərov S.; elmi red. Naxçıvanlı A.H. Bakı: ŞƏMS, 2006, 192 s.; Xoşməramlı səfir. IV kitab /tərt.Əliyev Ə.; elmi red. Əliyev Q. M. Bakı: ŞƏMS, 2007, 212 s.; Xoşməramlı səfir. V kitab /tərt.Əhmədov Ş.; elmi red. Naxçıvanlı A.H. Bakı: ŞƏMS, 2007, 160 s.; Xoşməramlı səfir /ön sözün müəl., tərt., elmi red. Naxçıvanlı A.H., elmi məsl. Əliyeva K. R. Bakı: Şəms, 2011, 744 s.

[13] Heydər Əliyev Fondu. 2004-2014. Bakı: 2014, 472 s.

[14] Əbədiyyət məbədi / tərt.: Seyidov M.H., Kamiloğlu Q.; red.Həsənov M. I hissə. Bakı: Elm və Təhsil, 2010, 544 s.

Bundan əlavə, E.Əhmədovun əsərində Azərbaycanın beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sisteminə qoşulması, eləcə də müstəqillikdən keçən dövr ərzində BMT ilə münasibətlərinin öyrənilməsinə xüsusi diqqər yetirilmişdir[15]. Bununla yanaşı, Azərbaycanın BMT, eləcə də onun ixtisaslaşmış qurumları ilə əlaqələri və digər sahələrdə əməkdaşlıq kontekstində tədqiqat obyekti olmuş müxtəlif dissertasiya işlərinə də diqqət yetirilmişdir. Bu baxımdan Ş. Qasımova, H. Rəcəbli, N.Məlikova və başqalarının tədqiqat işləri müasir beynəlxalq münasibətlər sistemində ölkəmizin rolunun öyrənilməsi baxımından əhəmiyyətlidir[16].

Dissertasiyanın yazılması prosesində bütün bunlardan yanaşı, Azərbaycanda F.Məmmədov, X.Kazımlı, S.Məmmədəliyeva, A.Qurbanov, S. Hüseynov, R.Ələkbərov, R.Rumzadə, İ.Şükürov, Q.Mikeladze, A.Əmirov və eləcə də başqa müəlliflərin əsərlərində də araşdırdığımız problemin müəyyən məqamlarına dair dəyərli məlumatlar verilmişdir[17].

Rus tədqiqatçılarından S.Çerniyavskinin əsərlərində 1993-cü ilin ikinci yarısından ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində oynadığı rolu göstərməklə yanaşı, beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrinin tədqiq edilməsi baxımından da mühüm əhəmiyyət

---

[15]Əhmədov E.İ. Azərbaycanın xarici siyasəti: beynəlxalq təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətlər. Bakı: Letterpress, 2013, 452 s.

[16] Qasımova Ş.V. BMT-də islahatlar və Azərbaycan Respublikası. Siyasi elmlər üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı. Bakı, 2014, 24 s.; Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları ilə Azərbaycan arasında əlaqələr. Siyasi elmlər namizədi dissertasiyasının avtoreferatı. Bakı, 1997, 30 s.; Məlikova N.A. BMT strukturalarında Azərbaycan diplomatiyasının xüsusiyyətləri. Siyasi elmlər namizədi dissertasiyasının avtoreferatı. Bakı, 2007, 23 s. və b.

[17] Мамедов Ф.Т. Культурология как путь к эффективной жизнедеятельности. Баку: "Абилов, Зейналов и сыновья", 2006, 576 с.; Мамедов Ф.Т. Культурология, культура, цивилизация. Баку, «OL»nptk, 2015, 300 с.; Kazımlı X. H. Böyük siyasətin davamı. IV cild, Bakı: Nurlar NPM, 2008, 720 s.; Kazımlı X. H. Böyük siyasətin davamı. V cild., mart - may, 2005, Bakı: Nurlar NPM, 2008, 732 s.; Məmmədəliyeva S. Y. Mədəniyyətimizin və mədəni incilərimizin hamisi. Bakı: Nurlar, 2007,424 s. ; Курбанов А.М. Мехрибан Алиева и ее роль в современном Азербайджане. М.: МГИУ, 2010, 368.; Hüseynov S. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı: Təknur, 2012, 176 s.; Ələkbərov R .YUNESKO və Azərbaycan // "Mədəni-Maarif", 2009, №8/9, s.21-24.; Azərbaycan - YUNESKO: insan hüquqlarına əsaslanan tərəfdaşlıq // red. heyəti: Süleymanova E. T. tərt. Rumzadə R. F. Bakı:, 2014, 287 s.; Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır / tərtibçi - Şükürov İ. Bakı, 1994, 175 s.; Микеладзе Г.А. Гражданский подвиг Рамиза Абуталыбова: пути и судьбы эмиграции. Баку: Адильоглы, 2010, 72 с.; Əmirov A. Azərbaycan - YUNESKO əməkdaşlığının xüsusiyyətləri // "Dövlət idarəçiliyi", №3 (35), 2011, s.190-193.

kəsb edir[18]. Bundan əlavə, alman müəllif X.A.Şreplerin rus dilinə tərcümə olunmuş beynəlxalq təşkilatlara həsr edilmiş məlumat kitabı da işin gedişində gərəkli olmuşdur[19].

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini BMT-nin Təhsil, Elm, və Mədəniyyət məsələləri üzrə Təşkilatı olan YUNESKO-ilə əlaqələrinin öyrənilməsi, predmeti isə Azərbaycanın beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində YUNESKO ilə əməkdaşlığın elmi siyasi əhəmiyyətinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi Azərbaycan Respublikasının 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra YUNESKO münasibətlərini siyasi elmlər səpkisində kompleks şəkildə araşdırmaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuş və yerinə yetirilmişdir:

- Azərbaycanın qlobal dünya siyasətinə qatılmasında BMT ilə əlaqələrinin YUNESKO ilə əməkdaşlıq kontekstində elmi-siyasi təhlili;
- Müasir dövrdə YUNESKO-nun fəaliyyət istiqamətləri və müasir beynəlxalq münasibətlər sistemində yerinin araşdırılması;
- Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsində YUNESKO ilə əməkdaşlığının əsas istiqamətləri və inkişaf mərhələlərinin elmi təhlili;
- Azərbaycanın YUNESKO ilə əməkdaşlığının möhkəmlənməsində Heydər Əliyev Fondunun fəaliyyətinin öyrənilməsi;
- Azərbaycanın sivilzasiyalararası və mədəniyyətlərarası dialoq sahəsində göstədiyi təşəbbüslərin nəticələrinin elmi təhlili;
- Azərbaycan mədəni irsinin dünyaya çatdırılmasında YUNESKO ilə əməkdaşlığın tədqiq edilməsi.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiya işinin mühüm mənbəşünaslıq bazasını ümummilli lider Heydər Əliyevin həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin nitq, məruzə və çıxışlarına dair çoxcildli nəşrlər, rəsmi materiallar xüsusi əhəmiyyət kəsb edir. Dissertasiya işinin yazılmasında BMT və YUNESKO-nun sorğu və məlumat kitablarına, eləcə də BMT-nin Nizamnaməsinə və digər beynəlxalq hüquqi

[18] Чернявский С.И. Внешняя политика Азербайджанской Республики (1988-2003 гг.). Баку: Адилоглу, 2003, 504 с.
[19] Шреплер Х.А. Международные организации. / Пер. с нем. С.А. Тюпаева./ Спр. М.: Международные отношения, 1995, 324 с.

sənədlərə istinad edilmişdir. Bundan əlavə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivində saxlanılan sənədlərdən, eləcə də 2010-2015-ci illər üçün yekun mətbuat buraxılışlarından geniş istifadə istifadə edilmişdir.

Bütün bunlarla yanaşı, tədqiqatın işlənməsi prosesində Azərbaycanda və xaricdə nəşr olunan ("Dirçəliş-XXI əsr", "Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə", "Geostrategiya", "Azərbaycan", "Xalq qəzeti", "Respublika" və b.) elmi jurnallar və dövrü mətbuat materiallarından da kifayət qədər istifadə edilmişdir.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** ümummilli lider Heydər Əliyevin, həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitq, məruzə və çıxışlarında problemlə bağlı irəli sürülmüş konseptual müddəalar, sərəncam və fərmanları, eləcə də bu sahədəki fundamental əsərlər təşkil edir. Bununla yanaşı, dissertasiyanın elmi-nəzəri bazasını beynəlxalq münasibətlərin və siyasi elmin ümumən qəbul edilmiş metodları təşkil edir. İşin gedişində siyasi elmlərdə tətbiq olunan ümumməntiqi metodlardan - analiz və sintez, ümumiləşdirmə, eyni zamanda müqayisəli və sistemli təhlil metodlarına da üstünlük verilmişdir.

Problemin əhatə etdiyi dövr bir çox sənədlərlə zəngin olduğundan işin yazılması prosesində müqayisəli siyasi təhlilə geniş yer verilmiş, bu metodların xronoloji və problem-xronoloji üsullarından daha çox istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiq etdiyimiz mövzu aktual olduğuna və siyasi əhəmiyyət kəsb etdiyinə görə o, ilk dəfə olaraq, kompleks şəkildə tədqiq edilir və onun elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsində BMT və onun ixtisaslaşmış qurumu olan YUNESKO ilə əməkdaşlığının əsas istiqamətləri və inkişaf dinamikası tədqiq olunur;
- İlk dəfə olaraq Azərbaycan - YUNESKO əlaqələrinin istiqamətlərinin inkişaf mərhələləri ayrıca araşdırılır;
- Azərbaycanın YUNESKO ilə əməkdaşlığının möhkəmlənməsində Heydər Əliyev Fondunun fəaliyyəti ayrıca tədqiq edilir;
- Azərbaycanın YUNESKO əlaqələri çərçivəsində təhsil, elm, mədəniyyət sahələrində müxtəlif beynəlxalq tədbirlərin əhəmiyyəti öyrənilir;
- Heydər Əliyev Fondu tərəfindən xarici ölkələrdə həyata keçirilən mədəniyyət layihələri mədəni müxtəliflik və ümumbəşəri dəyərlərə hörmət konteksində araşdırılmışdır;

- Son illərdə mədəniyyətlərarası və sivilizasiyalararası dialoq sahəsində həyata keçirilən beynəlxalq səviyyəli tədbirlərin əhəmiyyəti öyrənilir;

- Bu istiqamətdə Azərbaycanın sivilzasiyalararası və mədəniyyətlərarası dialoq sahəsində YUNESKO tərəfindən dəstəklənən tədbirlər, respublikamızın beynəlxalq aləmdəki nüfuzunun daha da möhkəmləndirilməsi kontekstində araşdırılır;

- YUNESKO ilə əməkdaşlıq Azərbaycan Respublikasının yürütdüyü mültikulturalizm və tolerantlıq siyasətinin daha da genişlənməsi və möhkəmlənməsi baxımından tədqiq edilir;

- Azərbaycanın maddi-mədəni irsinin qorunması və dünyaya çatdırılmasında YUNESKO ilə əməkdaşlıq ölkəmizin beynəlxalq mədəni əlaqələrinin genişlənməsi kontekstində təhlil edilir;

- Bu baxlmdan, Ermənistanın təcavüzü nəticəsində işğal altında qalan və YUNESKO-nun maddi-mədəni irsi siyahısında olan beynəlxalq əhəmiyyətli tarixi-mədəniyyət nümunələrinin dünyaya çatdırılması məsələləri öyrənilir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Dissertasiya işinin materiallarından aşağıdakı məqsədlər üçün istifadə etmək mümkündür:

- Azərbaycanda beynəlxalq münasibətlər və xarici siyasət problemlərinə dair dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların hazırlanmasında;

- beynəlxalq münasibətlər və siyasi elmlər üzrə mütəxəssislər hazırlayan ali məktəblərin müəllim və tələbələri üçün mühazirə, seminar məşğələləri və xüsusi kursların keçirilməsində tədris vəsaiti kimi;

- praktik xarici siyasət problemləri ilə məşğul olan institutlar və bu sahədə çalışan mütəxəssislər üçün faydalı ola bilər;

- dissertasiyada söylənilən elmi mülahizə və fikirlər, aparılan araşdırmaların nəticələri bu mövzu ilə əlaqədar gələcəkdə daha yeni tədqiqat işlərinin istiqamətlərinin müəyyənləşdirilməsində faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" və "Tarix" kafedralarının birgə iclasında müzakirə edilmiş və müdafiəyə məsləhət görülmüşdür.

Dissertasiya işinin əsas müddəaları və elmi nəticələrini özündə əks etdirən müəllifin 13 elmi məqaləsi Azərbaycan Respublikasının Prezidenti yanında AAK-nın siyahısında olan elmi nəşrlərdə (onlardan 3-ü xaricdə) çap edilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə səviyyəsi və mənbə bazası təhlil edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, işin elmi yeniliyi və praktik əhəmiyyəti göstərilmişdir.

Bu problem sistemli şəkildə araşdırılmadığından tədqiqatın əvvəlində Azərbaycanın BMT ilə əlaqələrinin qurulması və inkişafı dinamikası təhlil edilmiş, YUNESKO-nun fəaliyyət istiqamətləri və müasir beynəlxalq münasibətlər sistemində yeri araşdırılmışdır. Əsas diqqət isə, dissertasiyanın tədqiqat obyekti kimi Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsində YUNESKO ilə əməkdaşlığının əsas istiqamətləri və inkişaf dinamikasının öyrənilməsinə yetirilmişdir.

Bu baxımdan, **birinci fəsil – "Azərbaycanın qlobal dünya siyasətində iştirakı BMT ilə əməkdaşlıq kontekstində"** adlanır. **Bu fəslin birinci yarımfəslində** Azərbaycanın BMT və onun ixtisaslaşmış qurumları ilə əlaqələrinin yaradılması və inkişafı məsələləri öyrənilərkən sülh və təhlükəsizlik məsələləri ilə yanaşı, ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əmkdaşlıq məsələlərinə daha çox diqqət yetirilmişdir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci il oktyabrın 29-da BMT və dünya dövlətlərinə müraciət etdi. BMT Təhlükəsizlik Şurası 1992-ci il fevralın 14-də Azərbaycanın müraciətini müzakirə edərək ölkəmizin bu təşkilata üzv qəbul olunmasını tövsiyə etdi. Beləliklə, BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasında Azərbaycan Respublikasının BMT üzvlüyünə qəbul olması barədə qətnamə qəbul edildi.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycan-BMT əməkdaşlığı daha da genişləndi. Həmin dövrdən başlayaraq ölkəmiz BMT Baş Assambleyasının işində də daim fəal iştirak edir. Belə ki, Azərbaycan Prezidenti Heydər Əliyevin BMT Baş Assambleyasının sessiyalarında və yüksək səviyyədə keçirilən müxtəlif iclaslarda, eləcə də çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi[20].

[20] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, s. 444-445

Hazırda Azərbaycan BMT-nin bir çox qurumlan ilə sıx va fəal əməkdaşlıq edir. Onların sırasında Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin İnkişaf Proqramı (UNDP), BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığı (UNOHCHR), BMT-nin Qaçqınlann hüquqları üzrə AIi Komissarlığı (UNHCR), BMT-nin Uşaq Fondu (UNICEF), Ümumdünya Səhiyyə Təşkilatı (WHO), BMT-nin Əhali Fondu (UNFPA), Sənaye İnkişaf Təşkilatı (UNIDO), BMT-nin Qadınlar Fondu (UN-WOMAN), BMT-nin Ərzaq Proqramı (WFP), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Əmək Təşkilatı (ILO) və digərlərini, o cümlədən BMT-nin müqavilə mexanizmləri ilə əməkdaşlığı göstərmək olar[21]. 1993-cü ildən bəri Azərbaycan dövləti BMT-nin Qaçqınlann işi üzrə Ali Komissarı (UNHCR) ilə birgə qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üzrə fəaliyyəti davam etdirir. 2000-2002-ci illər ərzində və BMT-nin Davamlı İnkişaf üzrə Komissiyasının 2002-2004-cü, 2003-2005-ci illər üçün isə BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) üzvü seçilmişdir[22].

Azərbaycan Respublikası 2011-ci il oktyabrın 24-də 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətinin dəstəyini qazanaraq inamlı qələbə qazanmışdır[23]. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması tarixi hadisə olmuş və bu Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi qiymətləndirilməlidir.

Son illərdə Azərbaycan BMT çərçivəsində terrorizmə qarşı aparılan mübarizəyə də fəal dəstək verir. Respublikamız BMT Təhlükəsizlik Şurasının Terrorizmə qarşı Mübarizə Komitəsi ilə yaxından əməkdaşlıq edərək, həmin quruma Azərbaycanda terrorizmə qarşı mübarizə sahəsində görülən tədbirlər haqqında müvafiq hesabatlar təqdim edir. Ölkəmiz BMT-nin əsas orqanlarında fəaliyyətini gücləndirməklə yanaşı, onun müxtəlif ixtisaslaşmış qurumları ilə də geniş əməkdaşlıq qurmağa müvəffəq olmuşdur. Hazırda Azərbaycan BMT-nin bir çox ixtisaslaşmış qurum və orqanları ilə fəal və səmərəli əməkdaşlıq edir. Təbii ki, bu iştirakçılıq Azərbaycan dövlətinə dünya miqyasında mövqelərini daha da möhkəmləndirməyə və milli maraqlarını müdafiə etməyə imkan yaradır.

---

[21] http://www.un.org
[22] http://www.mfa.gov.az
[23] Əhmədov E.İ. Ermənistanın Azərbaycan təcavüzü: təhlili xronika (1987-2011). Bakı: Letterpress, 2012, s.34-35.

Dissertasiyanın **birinci fəslinin ikinci yarımfəslində**, YUNESKO-nun əsas vəzifələri və fəaliyyətinə diqqət yetirilmişdir ki, bu da Azərbaycanın YUNESKO ilə müxtəlif istiqamətdə əməkdaşlığının öyrənilməsi üçün istiqamət olmuşdur. Müasir beynəlxalq münasibətlərin başlıca elementləri sırasına dövlətlərarası siyasi və iqtisadi əlaqələrlə yanaşı, sülh və dinc birgəyaşayışa xidmət edən elmi və mədəni əlaqələr də daxildir. Təsadüfi deyildir ki, BMT yarandıqdan sonra meydana gələn ilk universal ixtisaslaşdırılmış qurum YUNESKO olmuşdur. BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsindəki əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. BMT-nin təhsil, elm və mədəniyyət məsələləri təşkilatı 1945-ci il oktyabrın 25-də keçirilmiş London konfransında təsis olunmuş, təşkilatın Nizamnaməsi 1946-cı il noyabrın 4-də qüvvəyə minmiş və 20 üzv-dövlətdən ibarət təşkilat həmin il dekabrın 14-dən etibarən BMT-nin ixtisaslaşdırılmış qurumuna çevrilmişdir[24].

Bununla yanaşı, YUNESKO-nun fəaliyyəti daha ali məqsədə - təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə insanların şüurunda sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlmişdir. YUNESKO-nun Nizamnaməsinin 1-ci maddəsində qeyd edilmişdir: “Təşkilat irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq bütün xalqlar üçün BMT-nin Nizamnaməsində elan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi qarşısına vəzifə qoyur”[25].

XX əsrin 80-ci illərindən etibarən YUNESKO-nun fəaliyyəti perspektiv planlar əsasında genişlənməyə başladı. YUNESKO beynəlxalq sazişlərin hazırlanmasında və müzakirəsində yaxından iştirak edir. Belə ki, “Müəllif hüquqlarına dair Ümumdünya konvensiyası”, “Ümumdünya mədəni və təbii irsin qorunması haqqında Konvensiya”, “İrqlər və irqi mövhumat haqqında bəyannamə” və s. beynəlxalq sənədlər YUNESKO-nun yaxından iştirakı ilə hazırlanmışdır. YUNESKO Dünya İrsi Mərkəzi dünya mədəniyyəti incilərinin qorunmasında mühüm rol oynayır. Mədəni və təbii irsin qorunması haqqında konvensiyaya (1972) uyğun olaraq

[24] Организация Объединенных Нации. Основные факты. Справочник. Пер. с англ. М.: Издателство “Весь Мир”, 2000, с.64-65
[25] http://www.unesco.org/new/en/

Mərkəz abidələrin qorunması üçün regional sistemlərin yaradılması üzərində ciddi iş aparılır[26].

Bu gün qloballaşan dünyada YUNESKO 600-dən yuxarı qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir, bunların içərisində 14 ixtisaslaşmış elmi ittifaq və müxtəlif komitələr fəaliyyət göstərir[27]. Hazırda 200-ə yaxın üzvü olan YUNESKO-nun əsas məqsədi irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq təhsil, elm və mədəniyyət sahələri üzrə xalqların əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəstək verməkdir.

**"Azərbaycanın mədəni əlaqələrinin genişlənməsində YUNESKO ilə əməkdaşlığının əsas istiqamətləri və inkişaf dinamikası"** adlanan **birinci fəslin üçüncü yarımfəslində** xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərən YUNESKO ilə Azərbaycanın əlaqələri öz tarixinə görə ölkəmizin BMT-yə qəbul olduğu dövrdən əvvəlki illərə, yəni SSRİ-nin tərkibində yaşadığımız dövrə təsadüf edir. Məlum olduğu kimi, Azərbaycan hələ XX əsrin 60-cı illərindən Sovet İttifaqının tərkibində olarkən YUNESKO-nun fəaliyyətində fəal iştirak etmişdir.

Müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycan Respublikası BMT-nin ixtisaslaşmış qurumu olan YUNESKO-ya 1992-ci iyulun 3-də üzv qəbul olunmuşdur[28]. Azərbaycanın YUNESKO ilə əlaqələrinin genişləndirilməsi isə, 1993-cü ilin ikinci yarısından, yəni ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra başlanmışdır. Belə ki, Azərbaycan-YUNESKO əlaqələrinin inkişafında ən mühüm addım Azərbaycan Prezidenti Heydər Əliyevin Fransa Respublikasına 1993-cü ilin dekabrın 19-dan 21-dək davam edən ilk rəsmi səfəri çərçivəsində YUNESKO-nun Baş Direktoru Federiko Mayorla görüşü zamanı atılmışdır[29].

YUNESKO-nun Nizamnaməsinin 7-ci maddəsinə görə, bu mühüm təşkilatla işi ilə əlaqələndirmək məqsədilə ilk növbədə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atılmış və 1994-cü il fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti

---

[26] Rəcəbli H.M. BMT-nin ixtisaslaşmış qurumları. Bakı: 2003, s.111.
[27] http://www.unesco.org/new/ru/
[28] Микеладзе Г.А. Гражданский подвиг Рамиза Абуталыбова:пути и судьбы эмиграции. Баку: Адильоглы, 2010, с.57-58.
[29] Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır / tərtibçi - Şükürov İ. Bakı, 1994, s.38-40.

Heydər Əliyev bununla əlaqədar sərəncam imzalamışdır[30]. 1996-cı il noyabr ayının 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və YUNESKO-nun baş direktoru Federiko Mayor tərəfindən Azərbaycan Respublikası ilə YUNESKO arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır. Təsadüfi deyil ki, məhz bundan sonra Azərbaycanda ali təhsilin TASİS və TEMPUS proqramlarına uyğun şəkildə yenidən qurulmasına dair iki layihə reallaşdırılmağa başladı, 2000-ci il YUNESKO tərəfindən Böyük İpək yolu - TRASEKA ili elan olundu[31].

Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, incəsənətinə, elminə göstərdiyi yüksək diqqət və qayğını ehtiva edən siyasəti hazırda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Belə ki, respublikamızın bütün sahələrində gedən inkişaf və quruculuq YUNESKO-nun əhatə etdiyi prioritet sahələrə uyğundur. Azərbaycanın mədəni və təbii irsinin qorunması məsələsi də YUNESKO ilə əməkdaşlığın əsas istiqamətlərindən biridir.

2003-cü ilin noyabr ayının 7-də Azərbaycan muğamı YUNESKO-da bəşəriyyətin qeyri maddi irsinin şah əsəri elan olunmuşdur[32]. Azərbaycanın qədim və zəngin mədəniyyəti isə milli çərçivədən beynəlxalq səviyyəyə qalxmış, ümumdünya mədəniyyətin bir parçası olmuşdur. YUNESKO çoxtərəfli beynəlxalq təşkilat olduğu üçün onun vasitəsilə müxtəlif ölkələrin qarşılıqlı əməkdaşlığı üçün şərait yaranmışdır. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası təhsil, elm və mədəniyyət sahələrində YUNESKO vasitəsilə müxtəlif ölkələrlə və eləcə də təşkilatın özü ilə geniş əlaqələr qurur və əməkdaşlığını genişləndirir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü işlər, xüsusən də elm, təhsil və mədəniyyətimizin inkişafı istiqamətində həyata keçirdiyi qlobal layihələr YUNESKO ilə əlaqələrimizdə yeni mərhələnin əsasını qoymuşdur. Azərbaycan Respublikası öz xarici siyasətində YUNESKO-nun qəbul etdiyi norma və prinsiplərə yer verərək, müxtəlif mədəniyyətlərin dinc şəkildə birlikdə yaşaması, dini tolerantlıq, başlıca insan hüquqlarının müdafiəsi, təhsil və yaradıcılıq hüquqlarının qorunması, iqtisadi və sosial sferalarda davamlı inkişafın təmin edilməsi və s. rəhbər tutmaqdadır. Bu, imkan verir ki,

---

[30] "Azərbaycan" qəz., Bakı, 1994, 22 fevral
[31] http://mfa.gov.az/content/556; http://www.traceca-org.org/en/home/baku-initiative/
[32] http://www.unesco.org/culture/ich/en/RL/azerbaijani-mugham-00039

gələcəkdə də Azərbaycan-YUNESKO əlaqələri təşkilatın əhatə etdiyi bütün prioritet sahələr üzrə yüksələn xətlə inkişaf edərək yeni nailiyyətlər və uğurlar qazanlsın.

**İkinci fəsil "Azərbaycan-YUNESKO əlaqələrinin yeni inkişaf mərhələsi"** adlanır. **Bu fəslin birinci yarımfəslində** Azərbaycanın YUNESKO ilə əməkdaşlığının möhkəmlənməsində Heydər Əliyev Fondunun fəaliyyəti tədqiq edilmişdir. Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması Fondun fəaliyyətində prioritet istiqamətlər olmuşdur. Son illərdə Azərbaycanda elm sektorunun inkişaf strategiyası, ölkəmizin qədim tarixi, təbii sərvətləri, geosiyasi mövqeyi, mədəniyyətinin qorunub inkişaf etdirilməsi sahəsindəki nailiyyətlərin əldə edilməsində də Heydər Əliyev Fondu uğurlu addımlar atmişdır.

2005-ci ilin martında Parisdə - YUNESKO-nun qərargahında "Qarabağ xanəndələri" albomunun təqdimat mərasiminin keçirilməsi, qurumun qeyri-maddi irsinin şah əsərləri siyahısına muğamın və aşıq sənətinin də daxil edilməsi, eyni zamanda, Bakıda Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulması Fondun fəaliyyətinin kifayət qədər genış spektri əhatə etdiyini göstərir[33]. YUNESKO xətti ilə hazırlanmış alboma "Qarabağ xanəndələri" adının verilməsi Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğunu, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi sayıldığını nümayiş etdirmişdir[34].

Heydər Əliyev Fondu tarixi abidələrin qorunması üçün həyata keçirilən tədbirlərdə də yaxından iştirak edir. Fondun mədəniyyət sahəsindəki fəaliyyəti əsasən üç istiqaməti əhatə edir: milli-mənəvi dəyərlərin və mədəni irsin qorunub saxlanması, ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası və yeni mədəniyyət obyektlərinin inşası, Azərbaycan mədəniyyətinin dünya ictimaiyyətinə tanıdılması mühüm rol oynayır. Bu sırada YUNESKO -nun Bəşəriyyətin Şifahi və Qeyri-Maddi İrsinin şah əsərləri siyahısında yer almış Azərbaycan muğamının inkişafına və tanıdılmasına xidmət edən Beynəlxalq Muğam Mərkəzinin açılmasını, Müasir İncəsənət Muzeyinin, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti

---

[33] Фонд Гейдара Алиева – основа успехов. Интервью первой леди Азербайджана Мехрибан Алиевой журналу "The Business Year" // Газ., "Бакинский рабочий", Баку, 2014 г, 15 мая.

[34] http://www.heydar-aliyev-foundation.org/en/content/view/136/93/

Muzeyinin, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılmasını qeyd etmək olar[35].

Heydər Əliyev Fondu beynəlxalq səviyyəli qurumdur. Fondun ABŞ, Rumıniya, Rusiya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Qurum BMT-nin İnkişaf Proqramı, YUNESKO, İSESCO və digər beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq edir. Bu baxımdan Fond Azərbaycandan kənarda da çox mühüm proqram və layihələr reallaşdırır. Xarici ölkələrdə həyata keçirilən proqram və layihələr əsasən üç istiqaməti əhatə edir: Azərbaycanın tanıdılması, o cümlədən xalqımızın tarixi və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması; Azərbaycan və azərbaycanlılarla bağlı tarixi, mədəni irsin bərpası və qorunması; Fondun məramına uyğun olaraq humanitar və sosial inkişafa kömək göstərilməsi[36].

Qısa müddət ərzində mədəniyyət diplomatiyasına və mədəniyyətlərarası dialoqa töhfələr verən Fond, Qafqazda və keçmiş sovet məkanında analoqu olmayan multikultural layihələri ilə dünyada tanınmışdır. Bununla yanaşı, Heydər Əliyev Fondu mütəmadi olaraq, YUNESKO, ISESKO və digər beynəlxalq təşkilatlar və fondlar ilə əməkdaşlıq edərək, Azərbaycan mədəniyyətinin geniş təbliği, ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına yardım göstərilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, dünya elminin nailiyyətlərinin və təcrübəsinin öyrənilməsinə, xarici ölkələrin elm mərkəzləri ilə əlaqələrin yaradılması və inkişaf etdirilməsinə hər zaman dəstək olmuşdur.

Dissertasiyanın **ikinci fəslinin ikinci yarımfəslində**, Azərbaycanın sivilzasiyalararası və mədəniyyətlərarası dialoq sahəsində göstədiyi təşəbbüslər geniş təhli edilir. İşdə gostərilir ki, son on ildə mədəniyyətlər və sivilizasiyalararası dialoq sahəsində keçirilmiş beynəlxalq səviyyəli tədbirlərin böyük əksəriyyəti Azərbaycan tərəfdən irəli sürülmüşdür. Keçən dövr ərzində irəli sürülən ideya və təşəbbüslər də bunu deməyə əsas verir.

1998-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Bakıda "Böyük İpək Yolu" layihəsinə həsr olunmuş beynəlxalq konfransın keçirilməsi ölkəmizin regionlararası əməkdaşlığa, Şərq-Qərb dialoquna,

---

[35] Фонд Гейдара Алиева – основа успехов. Интервью первой леди Азербайджана Мехрибан Алиевой журналу "The Business Year" // Газ., "Бакинский рабочий", Баку, 2014 г, 15 мая.

[36] http://www.heydar-aliyev-foundation.org/en/content/view/60/4208/

Avropa-Asiya inteqrasiyasına mühüm töhfəsi idi. 32 ölkənin, o cümlədən 9 dövlət başçısının, beynəlxalq təşkilatların yer aldığı konfrans mahiyyətcə iqtisadi işbirliyini nəzərdə tutsa da, strateji məqsəd etibarilə əslində nəhəng bir coğrafiyada qloballaşmaya, tarixi İpək Yolu üzərində yerləşən xalqlar, fərqli mədəniyyətlər arasında dialoqa, ünsiyyətə meydan açılması idi[37].

2006-cı il oktyabrın 19-da Parisdə YUNESKO -nun Baş Qərargahında təşkilatın 60 illik yubileyinə həsr olunmuş "Sivilizasiyalararası dialoq" həftəsi çərçivəsində "Azərbaycan - sivilizasiyaların və mədəniyyətlərin kəsişdiyi yer" adı altında Azərbaycan Günü keçirilmişdir. 2008-ci il dekabrın 2-dən 3-dək Bakıda Avropa Şurasının üzvü olan dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransda Avropa Şurasına üzv olan, Avropanın qonşu regionlarını təmsil edən ölkələr, Avropa Komissiyası, YUNESKO, İSESCO və s. təşkilatlar təmsil olunmuş, ümumilikdə 250-dən çox nümayəndə, 10 beynəlxalq təşkilatın başçısı iştirak etmişdir[38]. Müzakirə olunan mövzuların mahiyyətinə, iştirakçıların tərkibi, əhatə olunan regionların miqyasına görə Bakıda keçirilən bu konfransı Avropa və İslam ölkələrinin tarixində mədəniyyətlərarası dialoq mövzusunda ilk beynəlxalq tədbir kimi dəyərləndirmək olar.

Bununla yanaşı, mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı ölkəmizdə son illərdə bir sıra tədbirlər keçirilmiş, beynəlxalq elmi konfranslar, genişmiqyaslı mühüm forumlar təşkil edilmişdir. Xüsusilə, 2016-cı il aprelin 25-27-də Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Azərbaycanın dünyada tanıdılmasında yeni mərhələ oldu[39]. Nəticədə, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Azərbaycanın tolerantlığını, multikultural dəyərlərə sahib olmasını bir daha təsdiqlədi. Ölkəmizdə bu mühüm dünya əhəmiyyətli tədbirin keçirilməsi xalqın birliyinin, gücünün göstəricisinə çevrildi.

Ümumiyyətlə, son illər sivilizasiyalararası dialoq mövzusu ilə bağlı beynəlxalq məkanda aparılan fəal diskussiyalar, müxtəlif ölkələrdə keçirilən beynəlxalq konfranslar, simpoziumlar XXI əsrdə sivilizasiyalararası dialoq ideyasının nə qədər mühüm aktuallıq kəsb

---

[37] Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 752 s, s. 495

[38] Hüseynov S.Y. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı: Təknur, 2012, 176s, s.114-115.

[39] "Azərbaycan" qəz., Bakı, 2016, 28 aprel.

etməsindən xəbər verir. Bu məsələ BMT, YUNESKO, digər beynəlxalq təşkilatlar və bir çox dövlət başçıları tərəfindən də dəfələrlə gündəmə gətirilmiş, qlobal problemlərin bütün dünya xalqlarının birgə səyləri ilə həll edilməsi zərurəti vurğulanmış, sülh və əmin-amanlıq, mədəniyyətlərin qarşılıqlı surətdə zənginləşməsi üçün dialoqun qaçılmaz olduğu göstərilmişdir.

**"Azərbaycan mədəni irsinin dünyaya çatdırılmasında YUNESKO ilə əməkdaşlığın rolu"** adlanan **ikinci fəslin üçüncü yarımfəslində** Azərbaycan dövlətinin qeyri-maddi irs nümunələrinin qorunması və beynəlxalq səviyyədə təbliği məqsədilə həyata keçirdiyi müxtəlif tədbirlərin əhəmiyyəti öyrənilir.

Bu baxımdan, Azərbaycanın 5 qeyri-maddi mədəni irs nümunəsi YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, 1 irs nümunəsi Təcili qorunmaya ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına daxil edilmişdir. YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycan muğamı, Novruz, Azərbaycan xalçaçılıq sənəti, Aşıq sənəti, Tar və onun ifaçılıq sənəti, o cümlədən Azərbaycanının Çovqan Ənənəvi Qarabağ Atüstü Oyununun YUNESKO-nun Təcili qorunmaya ehtiyacı olan Qeyri-maddi Mədəni İrs Siyahısına salınması Azərbaycanın sadəcə maddi-mədəni abidələrinin deyil, eyni zamanda adət-ənənələrinin, ədəbiyyat və folklorunun, musiqisinin dünya miqyasında tanınmasına imkan verir[40]. Azərbaycanın təşəbbüsü ilə 2010-cu ildən etibarən BMT tərəfindən qəbul olunmuş Qətnaməyə əsasən, hər il martın 21-i bütün dünyada Beynəlxalq Novruz Günü kimi qeyd edilir[41].

Məlumdur ki, dünyanın ən byük beynəlxalq mədəni-humanitar təşkilatı kimi YUNESKO siyasi problemlərin müzakirəsi ilə məşğul olmur. Lakin YUNESKO-nun məramı, iş prinsipləri sırf humanitar xarakterli, siyasət baxımından bitərəf bəyan edilsə də, onun BMT-nin bir qurumu kimi real beynəlxalq siyasətlə bağlı fəaliyyət göstərir. Ermənistan silahlı qüvvələri tərəfindən ərazimizin 20 faiziin işğal olunması faktı, təcavüzkar dövlətin işğalçılıq siyasətinə son qoyulması ilə yanaşı, işğal olunmuş ərazilərdə mədəni irsimizin dağıdılması, talan edilməsi və mənimsənilməsi ilə bağlı ölkə rəhbərliyi bütün siyasi səviyyələrdə məqsədyönlü fəaliyyət göstərir.

---

[40] http://www.heydar-aliyev-foundation.org/en/content/view/136/93/

[41] UN General Assembly Resolution A/RES/64/253. "International Day of Nowruz"

Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyev 2015-ci il noyabrın 17-də Parisdə YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda çıxışında Ermənistanın təcavüzkar siyasətinin davam etdiyini bir daha vürğulayaraq işğal nəticəsində Azərbaycanın tarixi, memarlıq və dini abidələrinin, xüsusilə, 600-dən çox tarixi və memarlıq abidəsinin Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə məhv edildiyini diqqətə çatdırmışdır. Eyni zamanda, dövlət başçısı bildirmişdir ki, bunların içərisində 40 min eksponatın qorunduğu 22 muzey məhv edilmiş, o cümlədən bizim tarixi irsimizə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılmışdır”[42].

Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın tarixi və mədəniyyət, eyni zamanda, dini abidələrinin vəhşicəsinə dağıdılması və qəsdən məhv edilməsi “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyası, “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun 1972-ci il Konvensiyası, eləcə də “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyası ilə daban-dabana zidd olsa da, beynəlxalq birlik belə çirkin “siyasət”in qarşısının alınmasında qəti mövqe göstərmir, bu vandalizmə ikili standartlarla yanaşır.

YUNESKO-nun çağırışları bütün dünyada sülhə və qarşılıqlı hörmətə, insanlıq əleyhinə olan cinayətlərlə mübarizəyə əsaslanır. Mədəni müxtəlifliyi, tolerantlığı, münaqişəsiz həyatı, sağlam ətraf mühiti, təhsil, elm, və mədəniyyətin inkişafını özündə əks etdirən prioritet istiqamətlər üzrə fəaliyyət YUNESKO-nun dünya üzrə fəaliyyət proqramlarının əsasını təşkil edir. Bu gün dünyada insanların sülh diləyi bütün bəşəri dəyərlərin, o cümlədən insan hüquqlarının təmin olumasının əsasını təşkil edir. Yalnız sülh şəraitində hər bir istəyi reallaşdırmaq, yüksək mədəniyyətə nail olmaq mümkündür.

**Nəticədə**, tədqiq olunan problemlə əlaqədar ümumiləşdirmələr aparılmış, müasir dövrdə Azərbaycanın xarici siyasət prioritetlərinə uyğun olaraq YUNESKO ilə əməkdaşlığa ölkəmizin daha çox üstünlük verildiyi tədqiq edilərək, elmi nəticələr çıxarılmışdır. Müəllif belə qənaətə gəlmişdir ki, YUNESKO tərəfindən dəstəklənən möhtəşəm tədbirlər Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu daha da möhkəmləndirmiş, ölkəmizin tolerantlıq və dialoq məkanı kimi indiyədək oynadığı tarixi missiyaya təkan vermiş və nəticə olaraq mədəniyyətlərarası dialoq üzrə qlobal platformanın əsası qoyulmuşdur.

---

[42] “Azərbaycan” qəz., Bakı, 2015, 19 noyabr.

**Dissertasiyanın məzmunu nəşr edilmiş aşağıdakı işlərdə öz əksini tapmışdır:**


1. İngiliscə-azərbaycanca beynəlxalq sənədlərdə istifadə olunan ixtisarlar. Bakı, Mütərcim, 2007, 100 s.
2. Azərbaycanın beynəlxalq mədəni əlaqələri YUNESKO və İSESKO ilə əməkdaşlıq kontekstində // Azərbaycan Respublikasının müstəqilliyinin və Xəzər Universitəsinin yaranmasının 20 illiyinə həsr olunmuş beynəlxalq simpozium. Xəzər Universitəsi Nəşriyyatı, Bakı, 2012, s.459- 467.
3. Heydər Əliyevin Azərbaycan – YUNESKO əməkdaşlığının genişlənməsində rolu // "Heydər Əliyev Müstəqil Azərbaycan Respublikasının Banisidir" mövzusunda doktorant və dissertantların elmi konfransının materialları, Bakı, 2013, s. 202- 211.
4. Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməində YUNESKO ilə əməkdaşlığın rolu // "Geostrategiya" jurnalı № 02(14), Mart-Aprel, Bakı, 2013, s.55-60.
5. Направления и динамика развития сотрудничества Азербайджан с ЮНЕСКО // "Право и политология" Международный научный журнал, Кишинев, №26, июнь, 2014, стр.66-70.
6. Azerbaycan'ın Uluslararası İlişkilerinin Genişlemesinde UNESCO ile İşbirliğinin Rolü // Sosyal Bilimler Araştirma Dergisi. Yil:IX, Sayi:22, Eylül-2013, s.123- 132.
7. Azərbaycan - YUNESKO əməkdaşlığının istiqamətləri və inkişaf dinamikası // "Dövlət İdarəçiliyi": nəzəriyyə və təcrübə. Elmi-nəzəri və praktiki jurnal. 2013, №3(43), s.213- 222.
8. The role of cooperation with UNESCO in the development of international relation of the Republic of Azerbaijan // "Science and world" International scientific journal, Russia, Volgograd, 2016, №9 (37), Vol I, c.88-92.

**Айнур Рамиз кызы Фарманова**

# РОЛЬ ЮНЕСКО В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## Резюме

Диссертационная работа состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность темы исследования с научной точки зрения, определены объект и предмет, цель и задачи исследования, показаны научная новизна, теоретико-методологические основы, теоретическое и практическое значение работы.

Ввиду того, что впервые в данной работе проведен систематический анализ проблемы, то в первой главе - "Участие Азербайджана в глобальной мировой политике в контексте сотрудничества с ООН" изучаются отношения Азербайджана с ООН и ее специализированными учреждениями, а также развитие международных отношений страны в контексте сотрудничества с ЮНЕСКО, анализируются направления деятельности ЮНЕСКО и его место в международной системе как специализированного учреждения ООН. В то же время, широко изучается динамика развития и основные формы сотрудничества Азербайджана с ЮНЕСКО в направлении расширения международных связей республики.

Вторая глава - "Новый этап в развитии отношений между Азербайджаном и ЮНЕСКО" посвящается изучению деятельности Фонда Гейдара Алиева в укреплении сотрудничества Азербайджана с ЮНЕСКО. В диссертации отмечается, что Фонд, оставаясь верным своим принципам как внутри республики, так и за ее пределами, осуществил различные проекты в области здравоохранения, культуры, спорта, науки и техники, окружающей среды, социальной сферы и др. Здесь широко изучается роль сотрудничества с ЮНЕСКО в деле информирования мира о культурном наследии Азербайджана. В работе показана роль сотрудничества с ЮНЕСКО в деле информирования мира о культурном наследии Азербайджана, инициативы страны в области межкультурного и межцивилизационного диалога.

В Заключении подводятся итоги и на основе проведенных обобщений автор приходит к выводу, что сотрудничество Азербайджана с ЮНЕСКО в современный период является приоритетным направлением внешней политики страны. Автор приходит к выводу о том, что мероприятия поддержанные со стороны ЮНЕСКО содействуют еще большему укреплению авторитета Азербайджана на международной арене, а также способствуют исторической миссии нашей страны по обеспечению толерантности и диалога. В результате были также заложены основы глобальной платформы по межкультурному диалогу.

**Aynur Ramiz Farmanova**

## THE ROLE OF COOPERATİON WİTH UNESCO İN THE DEVELOPMENT OF İNTERNATİONAL RELATİONS OF AZERBAİJAN

**Summary**

The thesis consists of introduction, two chapters, conclusion and the recommended reference list.

The introduction substantiates the relevance of the subject matter, analyzes the degree of exploration problem and resource base, determines the goals and objectives of the research and shows scientific innovation and practical significance of the research.

Chapter 1 entitled "The participation of Azerbaijan in the world policy in the context of the cooperation with UNESCO" is analyzed as systematically examined matter for the first time. The beginning of the research explores the relationship with the UN and its specialized agencies of Azerbaijan, the development of international relations in the context of the cooperation with UNESCO. In addition, the activity directions and the role of UNESCO specialized agency of the UN and the place of it in the international relations system are analyzed in the thesis. At the same time, thesis explores the main directions of cooperation with UNESCO of Azerbaijan in the expansion of international relations and the dynamic development of it.

Chapter 2 entitled "A new phase of development of relations between Azerbaijan and UNESCO" investigates the Heydar Aliyev Foundation's activities in the strengthening of Azerbaijan-UNESCO cooperation. The foundation adhering to its principles has implemented various projects in education, health, culture, sports, science and technology, environmental, social and other fields in Azerbaijan and abroad. In addition, the main activity directions of the Heydar Aliyev Foundation, the role of promotion of Azerbaijani culture to the world are explored in the work. At the same time, this work is focused on showing the role of cooperation with UNESCO in informing the world about the cultural heritage of Azerbaijan. Also the work investigates the initiatives of events in the field of intercultural dialogue, multiculturalism and the role of cooperation with UNESCO.

In conclusion, generalizations regarding to the problem have been studied, analyzing cooperation of Azerbaijan with UNESCO in the modern era in accordance with the foreign policy priorities of our country have been studied, the scientific conclusions have been reached. The author has come to the conclusion that the events supported by UNESCO has strengthened the international reputation of Azerbaijan, impacting the historic mission of our country as a place of tolerance and dialogue. As a result, the global platform for intercultural dialogue has been founded.

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**АЙНУР РАМИЗ КЫЗЫ ФАРМАНОВА**

# РОЛЬ ЮНЕСКО В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5901.01 – Международные отношения**

Диссертация на соискание ученой степени
доктора философии по политическим наукам

**А В Т О Р Е Ф Е Р А Т**

**БАКУ – 2016**